LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Ticarətlə bağlı fəaliyyətlərə, ÜTT-yə üzvlüyünə dair danışıqlara, Keyfiyyət infrastrukturunun (QI) və rəqəmsal idarəetmə sisteminin gücləndirilməsinə dair Azərbaycan Hökumətinə dəstək

İcra müddəti: 15.01.2024 - 14.01.2027

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 2 534 165

Ümumi büdcə: € 2 534 165

İcraçı təşkilat(lar):
DMI Associates

Internet səhifəsi: www.wto.az

Layihənin təsviri:

Layihənin məqsədi ÜTT-yə üzvlük danışıqlarında və digər ticarətlə bağlı fəaliyyətlərdə Azərbaycan hökumətinə dəstəyin göstərilməsi, o cümlədən Milli Keyfiyyət İnfrastrukturunun gücləndirilməsi və nəhayət, rəqəmsal idarəetmə sisteminin tam tətbiqində İqtisadiyyat Nazirliyinə dəstəyin göstərilməsidir.

Gözlənilən nəticələr:

- Ticarət siyasətinin işlənib hazırlanmasına və həyata keçirilməsinə, o cümlədən ÜTT-yə qoşulmasında və ticarətlə bağlı digər danışıqlara dəstək verilməsində bilavasitə yönəlmiş müvafiq 14 dövlət orqanlarının institusional potensialı gücləndirilmişdir.
- Azərbaycanın milli ticarət siyasətinin ÜTT-yə üzvlük tələblərinə və qabaqcıl beynəlxalq ticarət təcrübələrinə uyğunlaşdırmaq məqsədilə hüquqi baza gücləndirilmişdir
- Azərbaycan Respublikasının danışıqlar qrupuna həm çoxtərəfli, həm də ikitərəfli səviyyələrdə ÜTT-yə üzv olmaq üzrə danışıqlar sessiyaları ilə bağlı təlimat verilmişdir.
- ÜTT prosesi/tələbləri və ticarətlə bağlı digər çərçivələri anlamaqda müvafiq dövlət orqanlarının, eləcə də biznes və akademik ictimaiyyətin insan potensialı gücləndirilmişdir
- Maraqlı tərəflərin ticarət siyasəti haqqında məlumatlılığı artırılmışdır;
- İqtisadiyyat Nazirliyinin institusional və insan potensialı gücləndirilmişdir, xüsusən öz fəaliyyət istiqamətlərinin rəqəmsallaşdırılması və rəqəmsal transformasiyası sahəsində;
- Azərbaycan 4-cü Sənaye İnqilabı Strategiyası və Milli Süni İntellekt Strategiyası hazırlanmışdır.